**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

Bakı şəhəri № 228/2 29 fevral 2012-ci il

İFAC-ın Beynəlxalq Təhsil Standartlarının tərcüməsi,
redaktəsi və nəşri barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "İFAC-ın Beynəlxalq Təhsil Standartlarının tərcüməsi, redaktəsi və nəşri barədə" 2.1.3-cü, 7.2-ci və 3-cü müvafiq bəndlərinin icrası ilə əlaqədar Aparatın rəhbəri Q.Bayramovun məlumatını müzakirə edərək və bu məsələyə dair Şura üzvlərinin əlavə və təkliflərini nəzərə alaraq, Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. İFAC-ın Beynəlxalq Təhsil Standartlarının Azərbaycan dilinə tərcümə edilmiş mətni bəyənilsin.
2. İFAC-ın Beynəlxalq Təhsil Standartlarının Azərbaycan dilinə tərcümə edilmiş mətninin 300 (üç yüz) nüsxədə nəşr etdirilməsi məqsədəmüvafiq hesab edilsin.
3. Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, həmin standartlarının Azərbaycan dilinə tərcümə edilmiş mətninin redaktəsi və nəşri ilə əlaqədar müvafiq işlərin vaxtında və keyfiyyətlə görülməsi təmin edilsin.

4. İFAC-ın Beynəlxalq Təhsil Standartlarının Azərbaycan dilinə tərcümə edilmiş mətninin nəşrindən Palatanın üzvlərinin hər birinə 1 (bir) nüsxə, Palata Şurasının üzvlərinin hər birinə 1 (bir) nüsxə, Palatanın struktur bölmələrinin və daimi fəaliyyət göstərən komissiya (komitə) rəhbərlərinin hər birinə 1 (bir) nüsxə, Palatanın kitabxanasına və arxivinə - hər birinə 2 (iki) nüsxə, Palata ilə əməkdaşlıq haqqında saziş imzaladığı yerli təşkilatının hər birinə 1 (bir) nüsxə, Azərbaycan Dövlət İqtisad Universitetində yaradılmış xüsusi auditoriyasına 3(üç) nüsxə, aidiyyəti üzrə iqtisadiyyatla bağlı dövlət və mərkəzi icra hakimiyyəti orqanlarına, iqtisadiyyat yönümlü ali məktəblərin kitabxanalarına, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına təqdim edilməsi üçün müvafiq sayda nüsxələr ayrılsın (siyahı əlavə olunur).
5. Aparatın rəhbəri Q.Bayramova, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, İFAC-ın Beynəlxalq Təhsil Standartlarının Azərbaycan dilinə tərcümə edilmiş və nəşr olunmuş mətninin paylanmasını, KİV-də işıqlandırılmasını və Auditorlar Palatasının İnternet saytında yerləşdirilməklə ictimaiyyətə çatdırılmasını təmin etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**